**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq reytinqlər
üzrə Komissiyanın sədri, Azərbaycan
Respublikası Baş nazirinin birinci
müavini Yaqub Eyyubov

__________________

12.12.2022-ci il

**Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Biznesin yerləşdiyi yer (əmlakın qeydiyyatı və icarəsi)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2023-cü il üzrə Yol Xəritəsi**

<table>
<tr><th>Sıra №-si</th><th>Alt komponentlərin tələbləri</th><th>Görüləcək tədbirlər</th><th>Son icra müddəti</th><th>İcraçı qurumlar</th><th>Məsul şəxslər</th></tr>
<tr><td colspan="6">1. Daşınmaz əmlakın icarəsi, əmlaka sahiblik və şəhərsalma üzrə qaydaların keyfiyyəti</td></tr>
<tr><td colspan="6">1.1. Torpaq resurslarının idarə olunması üzrə qabaqcıl normativ təcrübələr</td></tr>
<tr><td rowspan="3">1.1.1.</td><td rowspan="3">Sahiblik və icarə, təhlükəsiz torpaq mülkiyyətçiliyinin (dövlət və ya özəl zəmanət) mövcudluğu</td><td>1. Özbaşına tikintilərin nizamlanmasını nəzərdə tutan qanun layihəsinin və digər əlaqəli normativ hüquqi akt layihələrinin hazırlanması və aidiyyəti üzrə təqdim olunması</td><td>01.08.2023</td><td>İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi</td><td>Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Leyla Bərxudarzadə, Fərhad Məmmədov, Şahin Fərəcov</td></tr>
<tr><td colspan="4">2. Torpaq mülkiyyətçiliyinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə aşağıdakı istiqamətlər üzrə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi:</td></tr>
<tr><td>2.1. Üçüncü şəxsə məxsus torpaq sahəsində tikintisinə icazə verilmiş daşınmaz əmlak obyekti sahiblərinin torpaq mülkiyyətçiləri ilə münasibətlərini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi;</td><td>01.08.2023</td><td>İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi</td><td>Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Leyla Bərxudarzadə, Şahin Fərəcov, Fərhad Məmmədov, Emil Səfərov</td></tr>
</table>

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2.2. Mühafizə zonasının hüdudlarında yerləşən torpaq sahələrinin istifadəsinə dair qaydaların müasir standartlar və beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi. | 01.08.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Leyla Bərxudarzadə, Fərhad Məmmədov, Şahin Fərəcov, Emil Səfərov |
| | | 3. Torpaq sahəsi üzərində mülkiyyət hüququnun etibarlı müdafiəsinin təmin edilməsi, torpaq mülkiyyətçilərinin hüquqlarının və qanuni mənafelərinin daha səmərəli şəkildə qorunması məqsədilə torpaq sahəsi üzərində hüquqlara xitam verilməsi əsaslarının təkmilləşdirilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.08.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Kamil Həsənov, Leyla Bərxudarzadə, Şahin Fərəcov |
| | | 4. Tikintisinə icazə verilmiş daşınmaz əmlak obyektlərinə münasibətdə təminat qeydinin aparılması ilə bağlı prosedur qaydalarının müəyyən edilməsi | 01.09.2023 | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Leyla Bərxudarzadə, Şahin Fərəcov, Fərhad Məmmədov |
| | | 5. Torpaq kadastr məlumatlarına əlçatanlığın artırılması məqsədilə aşağıdakı əməliyyatlar üçün zəruri olan informasiya sistemlərinin inteqrasiyalarının genişləndirilməsi:<br><br>*- notariat əməliyyatlarının aparılması;*<br>*- vergilərin tutulması;*<br>*- tikintiyə icazələrin verilməsi.* | 01.09.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti, Dövlət Vergi Xidməti və “İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi” MMC), Ədliyyə Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | Rüstəm Şahbazov, Nigar Alimova, Fərid Cəfərov, Fərhad Məmmədov, Leyla Bərxudarzadə, Emil Səfərov, Aqşin Məcidov |
| | | 6. Beynəlxalq təcrübə öyrənilməklə daşınmaz əmlakın bazar qiymətlərinə dair məlumat bazasının yaradılması imkanlarının təhlil edilməsi və nəticələri üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.09.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Rüstəm Şahbazov, Nigar Alimova, Fərid Cəfərov, Leyla Bərxudarzadə, Aqşin Məcidov, Ayaz Hətəmov, Rəşad Əbləsənov, Ramil Hüseyn |

| | | | | | |
|---|---|---|---|---|---|
| **1.1.2.** | Gecikmə və korrupsiya hallarının qarşısını almaq üçün ictimaiyyətə açıq xidmət standartlarının mövcudluğu | 1. Daşınmaz əmlaka hüquqların qeydiyyatı sahəsində göstərilən xidmətlərə görə alınan xidmət haqları ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” qanun layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.08.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Şahin Fərəcov |
| | | 2. Daşınmaz əmlaka hüquqların qeydiyyatı ilə bağlı fiziki və hüquqi şəxslərdən daxil olan müraciətlərə vaxtında və şəffaflıq prinsipi rəhbər tutulmaqla baxılmasına dair daxili xidmət standartlarının hazırlanması | 01.08.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Fərid Cəfərov, Şahin Fərəcov, Rəşad Əbləsənov |
| | | 3. Xidmət standartlarına əlçatanlığın artırılması məqsədilə torpaq sahəsi və digər daşınmaz əmlaklarla bağlı Dövlət Xidmətləri Reyestrinə daxil edilmiş xidmətlərin göstərilməsi qaydası və prosedurunun təkmilləşdirilməsi, o cümlədən elektronlaşdırılması imkanlarının təhlil edilməsi və nəticələri üzrə müvafiq təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi | 01.08.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Fərid Cəfərov, Aqşin Məcidov, Şahin Fərəcov, Rəşad Əbləsənov |
| | | 4. Daşınmaz əmlak obyektlərinin növlərindən asılı olaraq onların üzərində hüquqların dövlət qeydiyyatı prosedurlarını əks etdirən məlumatların Azərbaycan dili və xarici dillərdə hazırlanması və qeydiyyat orqanının internet səhifəsində yerləşdirilməsi | 01.08.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Rüstəm Şahbazov, Nigar Alimova, Elmar Yaqubov, Rəşad Əbləsənov |
| **1.1.3.** | Torpaq mübahisələri risklərini minimuma endirmək üçün mühafizə tədbirlərinin mövcudluğu | 1. Dünya Bankının təhlillərinə əsaslanaraq torpaqların dövlət ehtiyacları üçün alınması zamanı siyahıyaalınma prosedurlarının təkmilləşdirilməsinə dair müvafiq layihənin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.11.2023 | Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti) | Rüstəm Şahbazov, Leyla Bərxudarzadə, Şahin Fərəcov |
| | | 2. Etibarlı idarəetmə əsasında daşınmaz əmlakla bağlı yaranan hüquqların dövlət qeydiyyatı prosedurlarının müəyyən edilməsinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2023 | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti) | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Leyla Bərxudarzadə, Şahin Fərəcov |

| | | | | | |
|---|---|---|---|---|---|
| **1.2. Əmlakın icarəsi və sahibliyi üzrə məhdudiyyətlər** | | | | | |
| **1.2.1.** | Əmlakın sahibinə və ya icarədarına dair məhdudiyyətlərin (məsələn, firmanın əməliyyat dövriyyəsinin həcmi, biznesin növü və ya zonalaşdırma əsasında) mövcudluğu | 1. Mənzil mülkiyyətçisi qismində əcnəbi və vətəndaşlığı olmayan şəxslərin həmin mənzilin olduğu binanın yerləşdiyi torpaq sahəsinə münasibətdə hüquqlarının tənzimlənməsi üzrə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.05.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Leyla Bərxudarzadə, Şahin Fərəcov |
| | | 2. İcarə müqavilələrində müddətlərin müəyyən edilməsi ilə bağlı fərqli yanaşmaların aradan qaldırılması, o cümlədən fövqəladə halların ( məsələn, pandemiyanın) nəzərə alınması məqsədilə qanunvericilikdə dəqiqləşdirmələrin aparılmasına dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.07.2023 | Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti) | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Leyla Bərxudarzadə, Şahin Fərəcov |
| **2. Dövlət xidmətlərinin keyfiyyəti və informasiyanın şəffaflığı** | | | | | |
| **2.1. Əmlak əməliyyatları üçün onlayn xidmətlərin mövcudluğu və infrastrukturun etibarlılığı** | | | | | |
| **2.1.1.** | Torpaq əməliyyatları, sahiblik, yüklülük, kadastr barədə məlumatların müvafiq tələblərə uyğun olaraq tam şəkildə elektronlaşdırılması | 1. Müvafiq sahədə hüquqi boşluqların mövcudluğu, eləcə də daşınmaz əmlakın dövlət kadastrı və reyestrinin hazırda vahid qurum tərəfindən aparıldığı nəzərə alınaraq, daşınmaz əmlakın dövlət kadastrı və reyestri haqqında qanun layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.09.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Fərid Cəfərov, Şahin Fərəcov, Emil Səfərov |
| | | 2. Daşınmaz əmlakın dövlət kadastrı və dövlət reyestri sahələrində idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, biznes mühitinin yaxşılaşdırılması baxımından əmlakın qeydiyyatı ilə bağlı xidmətlərin müasirləşdirilməsi, eləcə də elektron sənəd dövriyyəsinin və elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə "Daşınmaz Əmlakın Elektron Kadastrı və Reyestri" informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı layihəsinin hazırlanması və aidiyyəti üzrə təqdim olunması | 01.02.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Fərid Cəfərov, Şahin Fərəcov, Emil Səfərov, Fərhad Məmmədov, Samir Cabarov, Əli Həsənov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 3. Torpaq sahəsinin istifadə olunması ilə bağlı vergi öhdəliklərinin təmin edilməsi məqsədilə bu növ əmlak haqqında məlumatın vergi orqanına elektron ötürülməsinin təmin edilməsi | 30.10.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti, Dövlət Vergi Xidməti) | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Nicat İmanov |
| | | 4. Daşınmaz əmlak üzərində hüquqların elektron qaydada qeydiyyata alınması zamanı notariat orqanı tərəfindən aşağıdakı məlumatların elektron formada əldə edilməsinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi: | | | |
| | | 4.1. Sökülən binanın yerində tikilmiş yeni binada sahə ölçülərində dəyişikliklər; | 30.10.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti, Dövlət Vergi Xidməti), Ədliyyə Nazirliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Leyla Bərxudarzadə, Nicat İmanov |
| | | 4.2. İstifadə və icarə hüquqlarına dair yüklülük məlumatları; | 30.10.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti, “İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi” MMC), Ədliyyə Nazirliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Leyla Bərxudarzadə, Aqşin Məcidov |
| | | 4.3. Əmlakın yerləşdiyi zona və torpağın keyfiyyət əmsalı; | 30.10.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti, “İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi” MMC), Ədliyyə Nazirliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Leyla Bərxudarzadə, Çingiz Tanrıverdiyev, Aqşin Məcidov |
| | | 4.4. Nikah dövründə əldə olunan, lakin birgə əmlak kateqoriyasına aid olmayan əmlakın əldə edilməsinin hüquqi əsasları; | 30.10.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti, “İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi” MMC), Ədliyyə Nazirliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Leyla Bərxudarzadə, Aqşin Məcidov |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 4.5. Daşınmaz əmlakın tarix və mədəniyyət abidəsinə aid olması. | 30.10.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti, "İnformasiya Texnologiyaları və Məlumat İdarəetmə Mərkəzi" MMC), Ədliyyə Nazirliyi, Mədəniyyət Nazirliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Leyla Bərxudarzadə, Aqşin Məcidov |
| | | 5. Daşınmaz əmlakın dövlət reyestrinə daxil olan torpaq kadastr məlumat parametrlərinin Niderland Krallığının qabaqcıl təcrübəsi əsasında genişləndirilməsi məqsədilə Krallığın aidiyyəti qurumu ilə təcrübə mübadiləsinin aparılması | 10.07.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ("Legalize" MMC və "KPMG Azerbaijan Limited" şirkəti cəlb edilməklə) | Rüstəm Şahbazov, Nigar Alimova, Elşad Məmmədov, Fərid Cəfərov, Leyla Bərxudarzadə, Fərhad Məmmədov, Səbuhi Qəhrəmanov, Emil Səfərov, Rəşad Əbləsənov, Ruslan Bayramov, Kənan Mədətli |
| | | 6. Xarici ölkədə daşınmaz əmlakın əldə edilməsi ilə bağlı prosedur standartlarına dair məlumatı özündə toplayan Avropa Torpaq Məlumatı Xidməti *(The European Land Information Service - EULIS)* məlumat bazasının və bu sistemə inteqrasiya imkanlarının təhlil edilməsi və nəticələri barədə Komissiyaya məlumat verilməsi | 30.06.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Fərid Cəfərov, Aqşin Məcidov, Rəşad Əbləsənov, Leyla Bərxudarzadə, Əli Həsənov, Səbuhi Qəhrəmanov |
| **2.1.2.** | Torpaq mülkiyyətinin təhlükəsizliyi, sahiblik və kadastr məlumatlarının düzgünlüyü üçün etibarlı torpaq idarəçiliyi sisteminin mövcudluğu və bu sahədə onlayn dövlət xidmətlərinin əlçatanlığı | Daşınmaz əmlaka sərəncam verilməsi zamanı müxtəlif dövlət orqanlarının elektron informasiya resurslarında fərqli rekvizitlərlə qeydə alınan daşınmaz əmlakın ünvanlarının Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2008-ci il tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"na uyğun unifikasiyasına dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.10.2023 | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi), Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Rüstəm Şahbazov, Nigar Alimova, Fərid Cəfərov, Rəna Vəliyeva, Leyla Bərxudarzadə, Əli Həsənov, Samir Cabarov |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3. Biznes məkanının əldə olunmasında əsas xidmətlərin səmərəliliyi** | | | | | |
| **3.1. Əmlakın alqı-satqısı üzrə vaxt və xərclər** | | | | | |
| **3.1.1.** | Əmlakın alqı-satqısı üzrə tələb olunan xərcin ödənilməsi məqsədilə sahibkarlar və vətəndaşların banklara bir neçə dəfə gəlməməsi və müvafiq xərclərin onlayn ödənilməsi üçün zəruri infrastrukturun mövcudluğu | 1. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Notariat haqqında” Azərbaycan Respublikasının qanunlarına dəyişiklik edilməsi ilə bağlı qanun layihələri qəbul edildikdən sonra müvafiq texniki təchizat və proqram təminatlarının hazırlanması | 01.06.2023 | Ədliyyə Nazirliyi, Mərkəzi Bank (İcbari Sığorta Bürosu cəlb edilməklə), İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Maliyyə Nazirliyi | Rüstəm Şahbazov, Leyla Bərxudarzadə |
| | | 2. Əmlakın alqı-satqısı ilə əlaqədar Mərkəzi Bankın elektron ödəniş platforması üzərindən “Elektron notariat” informasiya sistemi ilə notariusun hesabı mövcud olan bankların informasiya sistemləri arasında inteqrasiyanın təşkili üzrə aşağıdakı tədbirlərin həyata keçirilməsi: | | | |
| | | 2.1. Daşınmaz əmlakın özgəninkiləşdirilməsi ilə bağlı ödənişlərin banklar tərəfindən mərkəzləşdirilmiş şəkildə qəbul olunması məqsədilə “Elektron notariat” informasiya sisteminin Mərkəzi Bankın elektron ödəniş platformasına inteqrasiyasının təşkil edilməsi; | 01.06.2023 | Mərkəzi Bank (İcbari Sığorta Bürosu cəlb edilməklə), Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti) | Rüstəm Şahbazov, Leyla Bərxudarzadə |
| | | 2.2. Daşınmaz əmlakın daha əlverişli şərtlər əsasında dövriyyəsini təmin etmək məqsədilə xidmət ödənişləri üzrə vahid güzəştli əməliyyat tariflərinin müəyyən edilməsi ilə bağlı tövsiyələrin verilməsi və xarici bankların kartlarından ödəmə imkanlarının yaradılması; | 01.06.2023 | Mərkəzi Bank (İcbari Sığorta Bürosu cəlb edilməklə), Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti) | Rüstəm Şahbazov, Leyla Bərxudarzadə |
| | | 2.3. Daşınmaz əmlak üzrə xərclərin onlayn ödənilməsi imkanının asanlaşdırılması məqsədilə xidmətin mobil versiyasının hazırlanması; | 01.06.2023 | Ədliyyə Nazirliyi, Mərkəzi Bank (İcbari Sığorta Bürosu cəlb edilməklə), İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Maliyyə Nazirliyi | Rüstəm Şahbazov, Leyla Bərxudarzadə |
| | | 2.4. Xarici bank hesabları vasitəsilə ödənişlərin onlayn aparılması imkanlarının təhlil edilməsi və müvafiq xidmətin xarici dillərdə göstərilməsinə dair təkliflərin hazırlanaraq Komissiyaya təqdim olunması | 01.06.2023 | Mərkəzi Bank (İcbari Sığorta Bürosu cəlb edilməklə), Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti) | Rüstəm Şahbazov, Leyla Bərxudarzadə |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4. Maarifləndirmə və təbliğat işlərinin aparılması** | | | | | |
| **4.1.** | Vətəndaşların və sahibkarların maarifləndirilməsi, onların məmnunluğunun təmin edilməsi və bu sahədə təbliğat işinin aparılması | Qanunvericiliyə edilmiş ən son dəyişikliklər və hazırkı Yol Xəritəsinin icrası üzrə əldə olunan nailiyyətlər barədə sahibkarlıq subyektlərinin məlumatlandırılması məqsədilə görüşlərin və ictimai dinləmələrin təşkil olunması, mediada maarifləndirici materialların yayımlanması | Hər rübdə ən azı 1 dəfə | İqtisadiyyat Nazirliyi (Əmlak Məsələləri Dövlət Xidməti), Ədliyyə Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Rüstəm Şahbazov, Nigar Alimova, Fərid Cəfərov, Leyla Bərxudarzadə, Aqşin Məcidov, Ayaz Hətəmov, Rəşad Əbləsənov, Ramil Hüseyn |